BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2010

# JURNALİSTİKA

# ÜZEYİR HACIBƏYLİ PUBLİSİSTİKASININ MÜASİRLİK PARAMETRLƏRİ

**X.A.QƏDİMOVA**
***Bakı Dövlət Universiteti***
***xurush29@rambler.ru***

*Məqalədə Üzeyir Hacıbəylinin əsərlərinin dilinin sadəliyindən, müasirliyindən, bu gün də aktual olduğundan bəhs edilir. Publisistin felyetonlarının bir çoxunun mövzusu, qaldırdığı problemlər bu gün üçün də müasir səslənir. Məqalədə XX əsrin böyük felyeton ustasının bu gün üçün həm öz poetikası ilə, həm sənətkarlıq, həm də jurnalistin peşə etikasına əməl etmək baxımından qiymətli olan və müxtəlif mətbuat səhifələrində işıq üzü görən felyetonları təhlil olunub.*

Mənim çox hörmət etdiyim yazıçı və tədqiqatçı Elçin deyir: «Üzeyir bəy o sənətkarlardandır ki, illər keçdikcə, dövrlər bir-birini əvəz etdikcə, öz xalqı tərəfindən daha artıq sevilir, daha artıq öyrənilir, yaradıcılığı, qoyub getdiyi irs yeni-yeni nəsillərin milli özünüdərki və özünüifadəsi prosesində mühüm və zəngin bir mənəvi sərvət kimi, yaxından, aktiv surətdə iştirak edir. O, bütün böyük sənətkarlar kimi, yalnız öz dövrünün deyil, bəlkə də daha artıq dərəcədə gələcəyin böyük sənətkarı idi». (1, 266-267). Bu fikir həqiqətən, Üzeyir Hacıbəyli sənətinə və onun sənətkar şəxsiyyətinə çox uyğundur. Bu gün Azərbaycan ictimai-mədəni, milli-mənəvi həyatı, bir az da səxavətlə desək, hətta siyasi həyatı ona görə yenidən Üzeyir Hacıbəyli yaradıcılığına qayıdır ki, bu yaradıcılıq indi, bizim günlərimizdə daha çox aktuallıq kəsb etməkdədir.

Belə bir fikir mövcuddur ki, guya qəzet yazısının bir günlük ömrü olur. Lakin Üzeyir bəy kimi publisistlərin yaradıcılığına diqqətlə baxanda hiss edirik ki, onun musiqi sənəti kimi, operetta ustalığı kimi publisist əsərləri də zamanın səddini aşaraq bir çox cəhətdən həmişəmüasirlik keyfiyyəti kəsb etməkdədir.

Üzeyir Hacıbəyli, əslində bir çox cəhətdən – mövzu çeşidliyi, həyata realist-satirik münasibəti, millilik ruhu və bir də aydın üslubu ilə Molla Nəsrəddin Ədəbi Məktəbinə məxsus sənətkardır. Akademik Heydər Hüseynovun təbirincə «Üzeyir Hacıbəyovun əsərlərinin sadəliyi dahiyanə bir sadəlikdir» (2, 27). Üzeyir Hacıbəylinin publisistikasının poetikasına diqqətlə nəzər salsaq, bu əsərlərdə sadəliyin dahiyanəlik səviyyəsində olduğunu aydın görə bilərik. Deməli, onun əsərlərinin müasirliyi həm də gənc publisistlərə necə aydın yazmağı öyrətməsindədir.

Hər əsrin başlanğıcı ekssesləriə dolu olur. XX əsrin əvvəlləri də Azərbaycan ictimai fikrinə yeni ideyalar, yeni keyfiyyətlər gətirmişdi. Azərbaycanda milli azadlıq ideyaları güclənirdi, milli-mənəvi dəyərlərə yeni baxış ortaya çıxırdı. C.Məmmədquluzadə, M.S.Ordubadi, Ö.F.Nemanzadə, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə… kimi publisistlər yeni dünyanın, yeni düşüncə tərzinin daşıyıcıları

kimi çıxış edirdilər. XX əsrin sonu-XXI əsrin əvvəli də yeni düşüncə, yeni baxış dövrü oldu. Bu anda bizə, bizim indiki nəslə hadisələrə tamamilə yeni baxışla nəzər salan Üzeyir Hacıbəyli yaradıcılığına yeni bir nəzər lazım oldu. Təsadüfi deyildi ki, Ermənistanın Azərbaycandan torpaq iddialarının saxta və əsassız olduğunu sübut etmək üçün, bu mənfur düşmənə qarşı publisistik mübarizə üçün Üzeyir bəyin «Azərbaycan» qəzetindəki kəskin yazıları lazım oldu. Və çox yaxşı haldır ki, tədqiqatçı Aslan Kənan onun bu əsərini «Fitnələr qarşısında» başlığı altında kitab halında çap etdirdi (3, 246). Bu kitabda toplanan əsərlərə sovet dövründə qadağalar qoyulmasaydı, bu əsərlər gənc nəslə yenidən çatdırılmış olsaydı, yəqin ki, biz erməni xislətinə daha çox bələd olardıq, kommunistlərin saxta «xalqlar dostluğu» ideyasının hansı faciələrə apardığını bilərdik.

Yəqin ki, Ü.Hacıbəyli əsərlərinin bu gün də bu qədər aktual olacağını hiss etmiş sovet ideologiyası onlara qadağa qoymağı özünə «borc» bilmişdi.

Ü.Hacıbəyli bir də ona görə müasirdir ki, «o, öz məqalələrində xalqın taleyi ilə yaşayan bir jurnalist idi» (4, 8). Üzeyir bəy yaradıcılığı müasirlərimizi xalqın taleyi ilə yaşamağa çağırır.

Böyük bir məsuliyyətlə demək olar ki, Üzeyir Hacıbəyli publisistikasının əksəriyyəti bu gün üçün də aktuallıq kəsb edir. «Vəkillərimiz nə tövr olmalıdır» sərlövhəli məqaləyə diqqət edək. Bu məqalədə publisist xalq tərəfindən Dumaya seçilən vəkillərin öz fəaliyyətində xalqa gərəkli olmasının yollarını, bəlkə də nəzəri istiqamətlərini göstərir. Müəllif göstərir ki, millət vəkili çətin vəzifədir və onu heç də hər kəs yerinə yetirməyi bacarmaz. Müəllifə görə millət vəkili bunun öhdəsindən gələ bilməyəcəyini qəlbən iqrar edərsə, bu işdən əl çəksin və bu vəzifəni öhdəsindən geri versin» (5, 40). Publisist göstərir ki, millət vəkili onu seçənlərin rifah və səadətinə çalışmalıdır. Onun fikrincə, « vəkil olan şəxs gərək əhalinin hər bir ehtiyacından xəbərdar olsun» (5, 40). Bu fikirlər nə qədər müasir səslənir? Etiraf edək müasir dövrümüzdə də millət vəkili seçilən bəziləri seçkidən əvvəl verdiyi vədləri unudur və nəinki xalqın, heç öz seçicilərinin də «ehtiyacından» xəbərdar olmur.

Məqalədə daha sonra millət vəkilinin vəzifələrini göstərir. Bu vəzifələr sırasında millət vəkilinin dil bilməsi, səlis ifadə tərzinə, cəsarət və cürət hissinə malik olması, şəxsi mənfəətinə deyil, əhalinin mənfəətinə xidmət etməsi, seçicilərlə onun arasında hörmət və məhəbbət olması kimi bu gün üçün də maraq kəsb edən məsələlər vardır.

Üzeyir Hacıbəyliyə görə gələcəyinin dərdinə qalmaq istəməyən bir millət «ufacıq az və zəif, fəqət huşyar və gələcək fikrində olan bir millətin qabağında əriyib, müruri-zaman ilə məhv və nabüd olubdur» (5, 46). Publisistə görə, hər millətin gələcəyinin «yaxşı və yamanlığı millətin özündədir» (5, 46). Bu fikirlər dünyanın qloballaşmaya getdiyi bir vaxtda, Qərb dəyərlərinə yerli-yersiz pərəstişin gücləndiyi müasir günlərimizdə daha aktual səslənməkdədir.

Ü.Hacıbəylinin millət, millətpərəstlik, vətənə xidmət ətrafındakı publisist fikirləri bu gün üçün çox müasir səslənir. Publisist «Öz əhvalımızdan» adlı bir məqaləsində millət yolunda xidmətin nə olduğunu açıqlayır. O, göstərir ki, istedad sahibləri özləri üçün deyil, millət üçün doğulurlar. «Dünyanın hər bir qitəsində bütün millətlərin yazıçıları, alimləri, sənayeyi-nəfisə sahibləri, sahibi fənləri özləri üçün bir o qədər iş görməlidilər, lakin ümum millət üçün çox işlər gördülər. Bir kəlmə. Hər bir tərəqqi ancaq bunların sayəsində oldu» (5, 156). Müəllim göstərir ki, Avropada,

bizdən fərqli olaraq, onlara çox qiymət qoyurlar. «Lakin bizlərdə millətin tərəqqi və təməddüdünə böyük bir ehtiyac olan bu zamanda, bu cürə tərəqqi və təməddüdün mənbəyi olan şəxslərə heç bir qədr və qiymət qoyan yoxdur... Biləks istedad sahiblərinin başından vururlar, həvəsdən salırlar, incidirlər, haqqında bir çox narəva və nagüvara işlər görürlər» (5, 156). Bu da bizim günlərimiz üçün aktual fikirlərdir. Yazıçı-dramaturq Rüstəm İbrahimbəyovun bir müsahibəsi ətrafında mətbuat və səbatsız jurnalistika onlarca nüfuzlu sənət adamını təhqir və böhtanlara düçar etdi. Ü.Hacıbəyli məhz bu tip hadisələrdən narahatlığını ifadə edirdi.

Ü.Hacıbəyli XX əsrin böyük felyeton ustasıdır. Onun müxtəlif mətbuat səhifələrində işıq üzü görən onlarca felyetonu bu gün üçün həm öz poetikası ilə, həm sənətkarlıq baxımından, həm də jurnalistin peşə etikasına əməl etmək baxımından böyük bir məktəbdir. Bu felyetonların bir çoxunun mövzusu, qaldırdığı problemlər bu gün üçün də müasir səslənir. Publisist «Müştəri» adlı felyetonunda dövrün qəzetlərindən «xuliqanlıq» iyi gəldiyini deyir. Bircə, bu fikir də yüz il keçməyinə baxmayaraq yenə də müasirdir. Çünki indi də Azərbaycanda «xuliqanlıq» iyi gələn qəzetlərin sayı çoxalmaqdadır.

Publisist «Millət geridə qaldı» sərlövhəli felyetonunda elə bir məsələ qoyur ki, o, bu gün üçün də çox aktual səslənir. Bu gün bir sıra qəzetlər millətin millət olmadığı iddiasında olub, onu yalnız tənqidlə məşğuldur. Ü.Hacıbəyli felyetonunda bu məsələyə toxunaraq yazır: «Mən and içərəm ki, bizim millətin, doğrudan da, geridə qalmağına bir səbəb də haman bu «millət geridə qaldı» sözüdür ki, daha gündə onlara qulaq asmaqdan təngə gəlmişik. Görürsən, iki qərib müsəlman bir şəhərdə görüşürlər. Birisinin də əlində qəzet var. Haman saat başlayırlar ki, «Millət geridə qaldı», bizi xabiqəflət basdı, vay halımıza vahəsrəta və sair. Bu cürə boş və bimənə sözlər ki, içində bir qəpiklik mənfəət yox, savayinki ürək bulanması və bir də baş ağrısı. Bu cürə kiflənmiş və çürümüş sözləri hamıdan çox deyən içimizdə bir sinif adamlardır ki, onların müsəlman millətinə olan zərəri nəflərindən çoxdur və millətin geridə qalmağına səbəb məhz onlardır. Həqiqətdə geridə qalmaqla irəli getməyin nədən ibarət olduğunu bilməyən bu adamların heç məsləki, əqidəsi olmur və hərçənd hürriyyət və ədalətdən dəm vururlar, amma onların da nəmənə şey olduğunu başa düşməyib, hər bir əməllərində də tərsinə iş görürlər. İki zidd məsləkli qəzeti ki, bunun biri də camaatın əxlaqını pozub tərəqqisinə mane ola və o biri də camaat üçün tərəqqi yolu aça, bunları bir-birindən seçə bilməzlər, məhz bir «xətir» üçün ya o qəzetə və ya bu qəzetə tərəfdar olurlar.

Camaata elan edirəm ki, bu cürə adamlardan bacardıqca uzaq olub, bir də onlar «millət geridə qaldı» dedikdə sözlərinə qulaq asmasınlar» (5, 351).

Üzeyir Hacıbəylinin «Bir qədər qəzetəçilik dərsi» sərlövhəli maraqlı bir felyetonu var. Məsələ burasındadır ki, biz bu gün jurnalistikada Qərb standartları barədə çox danışırıq. Üzeyir bəy bu felyetonunda qəzetin fəaliyyət prinsiplərini elə maraqlı və elə dəqiq qoymuşdur ki, onu oxuyandan sonra adam «Qərb standartlarının» Azərbaycan jurnalistikasında yüz il əvvəl tətbiq olunduğunun şahidi olur. Felyetona diqqət edək:

«Müəllim: Qəzetə hər bir şey yazmaq olarmı?

Şagirdlər: Xeyir, olmaz!

Müəllim: Necə olmaz? Bəs qəzetin başında «Hürriyyət» yazılıbdır?

Şagirdlər: Doğrudur, hürriyyət yazılıbdır, amma hürriyyət ondan ötrü yazılma-

yıbdır ki, hər kəsin ağlına nə gəlsə, götürüb qəzetə vurdursun.

Müəllim: Çünki o halda qəzet nə olar?

Şagirdlər: O halda qəzet zibil səbəti olar.

...Müəllim: Bəs qəzetə nə tövr məqalə yazmalıdır ki, çap olunsun?

Şagirdlər: Əvvələn qəzetin məsləkinə müvafiq olsun.

Müəllim: Məsələn nə tövr?

Şagirdlər: Tərəqqiyə mane olan şeylər rəf edilsin... mətbuat qanunlarına müğayir olmasın... qərəzi-şəxsi ilə yazılmasın,.. bimənə şeylər yazılmasın... fitnə və fəsad qovrayan olmasın...» (5, 375-377) Bu felyetonu müasirlik baxımından şərh etməyə ehtiyac yoxdur. Sadəcə bugünkü onlarca qəzetin bu prinsiplərə necə əməl etmədiyini xatırlamaq lazımdır.

Ü.Hacıbəylinin publisistikası özünün sənətkarlıq, ustalıq keyfiyyəti ilə həmişə müasirdir, xüsusi bir yaradıcılıq məktəbi səviyyəsindədir.

## ƏDƏBİYYAT

1. Elçin. Ədəbiyyatımızın yaradıcılıq problemləri. Bakı: Təhsil, 1999, 564 s.
2. Bəstəkarın xatirəsi. Bakı: Azərnəşr, №7, 1976, s.73.
3. Üzeyir Hacıbəyov. Fitnələr qarşısında. Bakı: Elm, 1995, 485 s.
4. Üzeyir Hacıbəyov. Musiqili komediyalar. Bakı: Azərnəşr, 1959, 340 s.
5. Üzeyir Hacıbəyov. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, 653 s.

## ПАРАМЕТРЫ СОВРЕМЕННОСТИ В ПУБЛИЦИСТИКЕ УЗЕИРА ГАДЖИБЕЙЛИ

Х.А.ГАДИМОВА

### РЕЗЮМЕ

В статье обсуждается простота языка, современность и актуальность произведений Узеира Гаджибейли. Темы и поднятые проблемы, во многих фельетонах публициста, и на сегодняшний день отзываются современностью. В статье анализированы фельетоны великого мастера фельетонов 20-го века, ценные с точки зрения как поэтики и мастерства, так и соблюдения профессиональной журналистской этики и освещенные на страницах различной прессы.

## PARAMETERS OF MODERNITY IN UZEYIR HACIBEYOV'S PUBLICISTICS

Kh.A.GADIMOVA

### SUMMARY

The article deals with the simplicity of the language, modernity and actuality of Uzeyir Hacibeyov's works. The themes and the raised problems in most feuilletons of the publicist still speak of modernity.

The author analyzes the topical feuilletons of the well-known master of feuilletons of the XX century valuable from the point of views of both poetics and mastery and the observation of professional journalistic ethics lighted in different pages of press.